# 525-ci qəzet






# "Nizami Gəncəvi əsərləri təsviri sənətdə" müsabiqəsi başlanıb

Təhsil Nazirliyinin dəstəyi və 2 nömrəli Uşaq-Gənclər İnkişaf Mərkəzinin təşkilatçılığı ilə "Nizami Gəncəvi əsərləri təsviri sənətdə" adlı onlayn respublika baxış-müsabiqəsinə start verilib. Müsabiqə yanvarın 18-dən martın 18-dək davam edəcək.

Nazirlikdən AZƏRTAC-a bildirilib ki, müsabiqənin məqsədi uşaq və gəncləri dahi şairin zəngin irsi ilə daha yaxından tanış etmək, təhsilalanların təsviri-tətbiqi sənət növləri vasitəsilə yaradıcılıq qabiliyyətləri və bacarıqlarını təkmilləşdirməkdən ibarətdir.

Müsabiqənin Bakı şəhərində ümumtəhsil məktəblərinin şagirdləri və respublika üzrə fəaliyyət göstərən uşaq-gənclər inkişaf mərkəzlərinin dərnək üzvləri arasında keçirilməsi nəzərdə tutulur. İki mərhələdə təşkil olunan müsabiqə "Rəsm" və "Əl işləri" nominasiyalarında 3 yaş qrupu üzrə (6-9, 10-13, 14-18) keçirilir. Müsabiqəyə qatılan təhsil müəssisələri hər yaş qrupu üzrə yalnız 1 rəsm və 1 əl işi təqdim etməlidir. "Rəsm" nominasiyası üzrə işlər A3 və ya A4 formatda işlənməlidir, rəsmlərin işlənmə texnikası sərbəstdir və hər işin aşağı sağ küncündə iştirakçının adı, soyadı, yaşı, təhsil müəssisəsinin adı və təqdim etdiyi işin adı qeyd olunmalıdır.

"Rəsm" nominasiyası üzrə işlər fevralın 18-dək ugim2@list.ru elektron poçt ünvanına göndərilməlidir. İştirakçılar "Rəsm" nominasiyası ilə əlaqədar (+994) 55-540-08-54 nömrəsi ilə əlaqə saxlaya bilərlər.

"Əl işləri" nominasiyası üzrə isə bu tələblər gözlənilməlidir: dahi şairin əsərlərini özündə əks etdirən işlər muncuq, toxuma, kağız və ağac əl işləri, oriqame, dulusçuluq, nitkoqrafiya (sapla əl işləri) ilə hazırlanmalıdır, əl işlərinin şəkilləri göndərilərkən iştirakçının adı, soyadı, yaşı, təhsil müəssisəsinin adı və təqdim etdiyi işin adı qeyd olunmalıdır. Bir iştirakçı yalnız bir nominasiya üzrə iştirak edə bilər.

"Əl işləri" nominasiyası üzrə işlər də fevralın 18-dək 2-ugim@mail.ru elektron poçt ünvanına göndərilməlidir. İştirakçılar "Əl işləri" nominasiyası ilə əlaqədar (+994) 55-232-31-73 nömrəsi ilə əlaqə saxlaya bilərlər.

Qalib işlər fevralın 18-dən martın 18-dək keçiriləcək yekun mərhələdə münsiflər heyəti tərəfindən seçiləcək. Müsabiqənin qalibləri 2 nömrəli Uşaq-Gənclər İnkişaf Mərkəzinin diplomları ilə təltif olunacaq.